## İzahlı qeydlər

Azərbaycan Sosial Rifah Partiyası (ASRP) 26 noyabr 1994-cü ildə yaranmış, 04 avqust 1995-ci ildə isə siyasi partiya olaraq Dövlət Qeydiyyatından keçmişdir. Dövlət Qeydiyyatı haqqında Şəhadətnamənin (dublikat) nömrəsi 27, 25 avqust 2000-ci il.

ASRP Qeyri-Kommersiya hüquqi şəxsdir.

ASRP-nin rekvizitləri:

«Rabitəbank» ASC

Müxbir hesabı: AZ61NABZ01350100000000006944

Kod: 506399

VÖEN: 9900001061

S.W.I.F.T. RBTAZ22

Hesab №-si: AZ09RBTA00330801009440000639

VÖEN: 1700169681

Ünvan: Şərifzadə küçəsi, 3152/56

ASRP-nin əsas fəaliyyəti əhalinin bütün təbəqələrinin sosial müdafiəsinin səmərəli sisteminin yaradılmasını nəzərdə tutan sosial proqramların yerinə yetirilməsi, onların rifah halının, elmi, mədəni, mənəvi və əxlaqi səviyyəsinin yüksəldilməsi yolu ilə humanist hüquqi və demokratik dövlətin qurulmasına və gündən-günə tərəqqsinə nail olmaqdır. ASRP bütün fəaliyyətini öz Nizamnaməsinə, «Siyasi Partiyalar haqqında» AR Qanununa və digər qanunvericilik Aktlarına istinad edərək aparır.

«Siyasi Partiyalar haqqında» AR Qanununda dəyişikliklər edilməsi barədə 2012-ci il 20 aprel tarixli, 346-NQD nömrəli Qanununun tətbiqi haqqında AR Prezidentinin 2012-ci il 8 may tarixli, 625 nömrəli Fərmanının 2.3 bəndinə əsaslanaraq, Siyasi Partiyalara dövlət büdcəsindən ayrılmış maliyyə yardımı 2014-cü il üzrə onların arasında bölüşdürülmüş və 106534 man. 08 qəp. Azərbaycan Sosial Rifah Partiyasının bank hesabına (il boyu rüblər üzrə) köçürülmüşdür.

ASRP mühasibat uçotunu «Mühasibat uçotu haqqında» AR Qanununa uyğun aparır. AR Nazirləp Kabinetinin 2012-ci il 16 noyabr tarixli, 263 nömrəli Qərarı ilə Maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydalarını təsdiq etmişdir. ASRP 2014-cü ilin Maliyyə hesabatlarını bu Qaydalara uyğun tərtib edərək təqdim edir:

**1 nömrəli forma üzrə «Maliyyə vəziyyəti haqqında hesabat»** aşağıdakı kimidir:

2014-cü ilin hesabat dövrü ərzində 1200,0 manat dəyərində iki ədəd kompüter alınaraq əsas vəsait kimi mədaxil edilmişdir. Bundan başqa qalıq dəyəri 9500 manat olan Mersedes Benz S350 markalı avtomaşın əvəzsiz olaraq 01.01.2014-cü ildə balansa mədaxil olunmuşdur.

Auditor yoxlaması nəticəsində Vergilər Məcəlləsinin 114-cü maddəsini rəhbər tutaraq dəyəri 500 manatdan az olan dəyərlilər 5845 man. məbləğində əsas vəsaitlər siyahısından çıxarılmışdır.

31.12.2014 il tarixinə partiyanın əsas vəsaitləri 30760 manat, köhnəlməsi 6640 man., qalıq dəyəri 24120 man. olmuşdur.

«Pul vəsaitləri və onların ekvivalentləri» maddəsi üzrə əvvəlki dövr, yəni hesabat ilinin əvvəlinə pul vəsaiti 41 manat 39 qəpik olmuş, hesabat dövrunun sonuna 95 man. 98 qəp. təşkil etmişdir.

Cəmi xalis Aktivlər və öhdəliklər 24215 man. 98 qəp. təşkil edir.

**2 nömrəli forma üzrə «Maliyyə vəziyyətinin nəticələri haqqında»** hesabata gəldikdə 2014-cü ilin hesabat dövrü ərzində dövlət büdcəsindən ASRP-yə 106534 man. 08 qəpik. məbləğində maliyyə yardımı ayrılmışdır.

Bu vəsaitdən cari işlərə 41898 manat, o cümlədən texniki xidmətə 354 manat, tikinti materiallarına 39659 manat, bank xidmətlərinə 625 manat, icarə haqlarına 260 manat və auditor xidmətinə 1000 manat sərf olunmuşdur.

Siyasi partyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər 49996 manat 40 qəpik təşkil etmişdir. O cümlədən 28884 manat əmək haqqının ödənilməsinə, DSMF-yə 8700 manat, gəlir vergisinə 4872 manat, dəftərxana ləvazimatına 613 manat, inventar alınmasına 240 manat, kompüter alınmasına 1200 manat, elektrik enerjisinə 3379 manat, avtoservisə 1998 manat, yol vergisinə 110 manat 40 qəpik sərf olunmuşdur.

İctimaiyyətlə əlaqələrə və tədbirlərin keçirilməsinə, çap işlərinə, qonaqların qəbuluna 12378 manat xərclənmişdir.

Sair xərclər isə 2207 manat 09 qəpik, amortizasiya 6640 manat təşkil edir.

Beləliklə ilin sonuna 54 manat 59 qəpik pul vəsaiti qalmışdır.

**ASRP-nin baş mühasibi** **S.Əliyeva**

Azərbaycan Sosial Rifah Partiyası ASRP

***"Azərbaycan Sosial Rifah" Partiyası***
***01.01.2014-cü ildən 31.12.2014-cü il tarixə bitən il üzrə***
***İcmal maliyyə hesabatları***

*(Azərbaycan manatı ilə)*

*Pul vəsaitlərinin hərəkəti* *2014*

*Xəzinə üzrə*

01.01.2014-cü ilə qalıq – 0,71

| | |
|---|---|
| 1. Bank | 91370,0 |
| ***Cəmi mədaxil:*** | ***91370,0*** |

| | |
|---|---|
| 1. Texniki xidmət | 354,0 |
| 2. Elektrik enerjisi | 3379,0 |
| 3. Avtoservis xidməti | 1998,0 |
| 4. Əmək haqqı | 28884,0 |
| 5. Yol vergisi | 110,40 |
| 6. Çap işləri | 10005,0 |
| 7. İcarə (tədbirlər üçün) | 260,0 |
| 8. Dəftərxana ləvazimatı | 613,0 |
| 9. Tikinti materialları | 39659,0 |
| 10. Qonaqların qarşılanması | 2373,0 |
| 11. Əsas vəsaitlərin alınması | 1200,0 |
| 12. Sair xərclər | 2207,04 |
| 13. İnventar alınması (masa) | 240,0 |
| ***Cəmi məxaric:*** | ***91282,44*** |

31.12.2014-cü ilə qalıq – 88,27

*Hesablaşma hesabı* *2014*

01.01.2014-cü ilə qalıq – 40,68

| | |
|---|---|
| Dotasiya | 106534,08 |
| ***Cəmi:*** | ***106534,08*** |

| | |
|---|---|
| 1. Xəzinə | 91370,0 |
| 2. Bank xidməti | 625,05 |
| 3. DSMF | 8700,0 |
| 4. Gəlir vergisi | 4872,0 |
| 5. Auditor xidməti | 1000,0 |
| ***Cəmi:*** | ***106567,05*** |

31.12.2014-cü ilə qalıq – 7,71

| *Partiyanın gəlirləri* | *2014* |
|---|---|
| Dotasiya | 106534,08 |
| ***Cəmi:*** | ***106534,08*** |

| *Partiya tərəfindən çəkilən xərclər* | *2014* |
|---|---|
| 1. Texniki xidmət | 354,0 |
| 2. Elektrik enerjisi | 3379,0 |
| 3. Avtoservis xidməti | 1998,0 |
| 4. Əmək haqqı | 28884,0 |
| 5. Yol vergisi | 110,40 |
| 6. Çap işləri | 10005,0 |
| 7.Dəftərxana ləvazimatı | 613,0 |
| 8. Tikinti materialları | 39659,0 |
| 9. Qonaqların qarşılanması | 2373,0 |
| 10. Əsas vəsaitlərin alınması | 1200,0 |
| 11. Sair xərclər | 2207,04 |
| 12. Bank xidməti | 625,05 |
| 13. DSMF | 8700,0 |
| 14. Gəlir vergisi | 4872,0 |
| 15. İnventar alınması (masa) | 240,0 |
| 16. İcarə haqqı (tədbirlər üçün) | 260,0 |
| 17. Auditor xidməti | 1000,0 |
| ***Cəmi xərclər:*** | ***106479,49*** |

| *Əmək haqqı* | *2014* |
|---|---|
| Hesablanıb | 34800,0 |
| Tutulub cəmi | 5916,0 |
| Gəlir vergisi | 4872,0 |
| DSMF (3%) | 1044,0 |

## 1. Ümumi məlumat

"Azərbaycan Sosial Rifah" Partiyası 26 noyabr 1994-cü ildə yaranmış, 04 avqust 1995-ci ildə isə siyasi partiya olaraq Dövlət qeydiyyatından keçmişdir. Dövlət qeydiyyatı haqqında partiyaya 27 saylı 04.08.1995-ci il tarixli şəhadətnamə verilmişdir.

"Azərbaycan Sosial Rifah" Partiyasının IV qurultayında Nizamnamə (yeni redaksiyada) 18.08.1998-ci ildə qəbul olunmuşdur. Həmin Nizamnamə 11.12.1998-ci ildə Ədliyyə Nazirliyində qeydə alınmışdır.

Nizamnaməyə əsasən partiyanın əsas fəaliyyəti – Siyasi fəaliyyət.

Mülkiyyət forması – Xüsusi.

Təşkilati hüquqi forması – Siyasi partiyadır.

"Azərbaycan Sosial Rifah" Partiyası /bundan sonra mətndə partiya adlanacaq/ vergi ödəyicisi kimi Bakı şəhər Vergilər Departamentinin 1 saylı filialında 08.10.2004-cü ildə yenidən qeydiyyata alınaraq ona 1700169681 saylı VÖEN verilmişdir.

Dövlət Statistika Komitəsində 05.06.1998-ci ildə qeydə alınaraq ona 91320 saylı əsas fəaliyyət, 1842931saylı indentifikasiya kodu verilmişdir.

Partiyanın AZ09RBTA00330801009440000639 saylı hesablaşma hesabı "Rabitəbank" ASC-də açılmışdır.

Partiyanın əsas fəaliyyəti əhalinin bütün təbəqələrinin sosial müdafiəsinin səmərəli sisteminin yaradılmasını nəzərdə tutan sosial proqramlarının yerinə yetirilməsi,onların rifah halının, elmi, mədəni, mənəvi və əxlaqi səviyyəsinin yüksəldilməsi yolu ilə humanist və demokratik dövlətin qurulmasına və günü-gündən tərəqqisinə nail olmaqdır.

Audit ilə əhatə olunan dövr ərzində işləmişlər:

Sədr: Kazımlı Xanhüseyn Hüseynağa oğlu – bütün dövr ərzində,

Baş mühasib: Əliyeva Solmaz Əli qızı – bütün dövr ərzində.

Partiyanın hüquqi ünvanı: Bakı şəhəri Şərifzadə küçəsi 3152/56.

### 1.1. Əməliyyat valyutası

Partiyanın təsərrüfat və maliyyə əməliyyatları Azərbaycan manatı ilə aparılır.

Audit ilə əhatə olunan dövrdə partiya xarici valyutadan və bank kreditindən istifadə etməmişdir.

## 2. Partiyanın büdcəsinin formalaşdırılması

### 2.1. Partiya büdcəsinin gəlirləri

Gəlir – mülkiyyətçilərin kapital qoyuluşu ilə əlaqədar olmayan, lakin kapitalda artım ilə nəticələnən və hesabat dövrü ərzində aktivlərin artması, daxil olması və ya öhdəliklərin azalması şəklində iqtisadi səmərənin artmasıdır.

Partiyanın gəlirləri üzvlük haqları; ianələr; dövlət büdcəsindən daxilolmalar hesabına formalaşır.

Audit ilə əhatə olunan dövrdə partiyanın gəlirləri ancaq dövlət büdcəsindən ayrılmış vəsaitlər olmuşdur.

Partiya üzvlərindən üzvlük haqları alınmamış; ianə mədaxil olunmamışdır.

### 2.2 Partiya büdcəsinin xərcləri

Xərc – mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi ilə əlaqədar olmayan və kapitalın azalması ilə nəticələnən hesabat dövrü ərzində aktivlərin kənara axını və ya azalması və öhdəliklərin artması hesabına baş verən iqtisadi səmərənin azalmasıdır.

2014-cü il ərzində dövlət tərəfindən ayrılan vəsaitlərin hamısı partiyanın saxlanılmasına, əsas fəaliyyətin davam etdirilməsinə sərf olunmuşdur.

Çəkilən xərclərin tərkibində ödənilmiş əmək haqqı 27,1% təşkil edir.

Alınmış tikinti materialları çəkilən xərclərin tərkibində 37,2% təşkil edir. Həmin tikinti materialları partiyanın yerləşdiyi ofisin təmiri üçün 1 saylı Təsərrüfat hesabı Təmir-Tikinti Quraşdırma İdarəsindən (VÖEN 1300695491) alınmışdır.

Partiyanın çap işləri (9,4%) "Print ART PLYUS" (VÖEN 1402266101) tərəfindən aparılmışdır.

Xərclərin tərkibində lüzumsuz xərclər (müamilə; cərimə və s.) yoxdur.

Çəkilən xərclərin sənədləri işlənilərək mühasibat yazılışları verilmişdir.

## 3. Bank və xəzinə əməliyyatları

Partiya tərəfindən bank çıxarışları ardıcıllıqla yığılmış və vəsaitlərin silinməsini təsdiq edən sənədlər onlara əlavə olunaraq tikilmişdir.

Bank sənədlərinin bank çıxarışlarına əsasən ardıcıllıqla işlənilməsində nöqsanlar müəyyən edilmədi.

Xəzinə kitabı səhifələnmiş, nömrələnmiş, tikilmiş və səhifələrin sayı imzalarla təsdiq olunmuşdur.

Xəzinəyə mədaxil olunan pul vəsaitləri "Ciddi hesabat blankları"na yazılmışdır.

## 4. Debitor və kreditor borcları

**Debitor borclar**- yığılması mümkün olmayan məbləğlər üzrə ehtiyatlar çıxılmaqla xalis realizə dəyərində göstərilir. Belə ehtiyatlar ya xüsusi halları, ya da vəsaitin toplanması sübutuna əsaslanan hesablamaları əks etdirir.

Partiya digər fəaliyyət növləri ilə məşğul olmadığından, üzvlük haqqı yığılmadığından debitor borcları yaranmamışdır.

Kreditor borcları vaxtında ödənildiyi üçün iddia müddəti ötən borclar yaranmamışdır.

## 5. Əsas vəsaitlər

**Əsas vəsaitlər**- istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan Vergilər Məcəlləsinin 114-cü maddəsinə uyğun olaraq amortizasiya edilməli olan maddi aktivlərdir.

01.01.2014-cü il tarixə partiyanın əsas vəsaitlərin (ilk) bərpa dəyəri 25905,0 manat, köhnəlməsi 2075,55 manat, qalıq dəyəri 23829,45 manat olmuşdur.

İl ərzində 1200,0 manat dəyərində 2 ədəd kompüter "Elektron-S" LTD-dən (VÖEN 3900621921) alınaraq mədaxil edilmişdir.Bundan başqa, qalıq dəyəri 16524,0 manat olan "Mersedes Benz 5350" markalı avtomaşın əvəzsiz olaraq 01.01.2014-cü ildə balansa mədaxil olunmuşdur.

Əsas vəsaitlərə 6849,0 manat köhnəlmə hesablanmışdır.

Dəyəri 500 manatdan olan 5845,0 manat maddi dəyərlilər əsas vəsaitlər siyahısından çıxarılmışdır.

31.12.2014-cü il tarixə partiyanın əsas vəsaitlərin (ilk) bərpa dəyəri 37784,0 manat, köhnəlməsi 8360,0 manat, qalıq dəyəri 29424,0 manat olmuşdur.

## 6. Əmək haqqı

Partiya işçilərinin orta siyahı sayı 8 nəfər olmuşdur.

01.01.2014-cü il tarixə "Əmək haqqı" üzrə borc olmamışdır.

Partiya işçilərinə 2014-cü ildə Əmək haqqının hesablanması və ödənilməsi vaxtında həyata keçirilmişdir.

31.12.2014-cü il tarixə "Əmək ödənişləri" üzrə qalıq olmamışdır.

## 7. Mühasibat uçotu hesabatlarının vəziyyəti

Partiyada mühasibat uçotu momerial order formasında aparılır.

Maliyyə hesabatları – istifadəçinin konkret məlumat ehtiyaclarına cavab verən hesabat tələb etmək hüququ olduqda onun bu tələbatını ödəmək məqsədi ilə tərtib edilmiş ümumi təyinatlı hesabatlardır.

Aylıq və rüblük maliyyə hesabatları vaxtında tərtib olunaraq aidiyyatı üzrə təqdim olunmuşdur.

İlkin sənədlərin işlənilməsi qənaətbəxş vəziyyətdədir.

## 8. Auditin nəticəsi üzrə təkliflər

1. Alınmış mal-materialın istifadəsi haqqında sənədləşmə aparılsın.
2. Əsas vəsaitlərdən səmərəli istifadə olunsun.
3. Dövlət büdcəsindən alınmış pul vəsaitlərinin xərclənməsi xərclər smetasına uyğun aparılsın.

Aktın doğruluğunu imzalarımızla təsdiq edirik.

"ŞƏFƏQ AUDİT KONSALTİNQ"
MMC-nin direktoru-auditor: A. A. Ağayev

"Azərbaycan Sosial Rifah"
Partiyasının Sədri: X. H. Kazımlı

Baş mühasib: S. Ə. Əliyeva